# PROFESSOR ABUZƏR XƏLƏFOV GÖRKƏMLİ BİBLİOQRAF KİMİ

**Solmaz Sadıqova**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

Respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin, eləcə də ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması professor Abuzər Xələfovun adı ilə bağlıdır. Azərbaycan milli kitabxanaşünaslıq elminin banisi, kitabxana işi sahəsində ilk sanballı elmi-tədqiqatlar aparmış, ilk dəfə namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş Abuzər Xələfov ölkəmizdə kitabxanaşünaslıq elminin banisi statusunu qazanmışdır. Fəxr edirəm ki, tələbəsi kimi görkəmli alim haqqında "Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı" (2001), "Abuzər Xələfov: biblioqrafik məlumat kitabı" (2006), "Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı" (2011) və "Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı" (2016), "Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin banisi – Abuzər Alı oğlu Xələfov: Məqalələr toplusu" (2016) adlı kitabların tərtibçisi olmuşam. Eyni zamanda görkəmli alimin elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında çap olunmuş biblioqrafik əsərlərlə yanaşı həm respublikamızda, həm də başqa ölkələrdə bir sıra yazılarım dərc olunub.

Professor Abuzər Xələfov Ulu Öndər Heydər Əliyevin əsərlərinin biblioqrafiyalaşdırılması sahəsində böyük işlər görmüşdür. İlk dəfə olaraq respublikamızın milli biblioqrafik fəaliyyətdə "Dünyanın görkəmli dövlət xadimləri" seriyası təsis olunmuş və Ümummilli Liderimiz Heydər Əliyevin 80 illik yubileyi münasibətilə "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı" nəfis şəkildə çap olunmuşdur (Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərt. edənlər: A.A.Xələfov, S.A.Sadıqova.- Bakı.: Bakı Universiteti Nəşriyyatı, 2003.- 434 s.). Kitabın Azərbaycan dilində 5 min, rus dilində (Гейдар Алиев: Библиографический справочник / Состовители: А.Халафов, С.Садыгова Баку: Издательство Бакинского Государственного Университета, 2003, 446с.) 3 min və ingilis dilində (Heydar Aliyev: Bibliographic reference book /Compiled A.Khalafov, S. Sadigova Bakı: Baku University Press, 2003, 455 p.) 2 min tirajla ayrı-ayrılıqda çap edilməsi həm onun elmi əhəmiyyətinin miqyasını, həm də

Heydər Əliyevin zəngin elmi-nəzəri irsinin öyrənilməsinin, onun çoxsaylı əsər-lərində irəli sürülmüş siyasi, iqtisadi, elmi və mədəni islahatların başa çatdırılması üçün çox gərəkli və faydalı xəzinə olduğunu müəyyənləşdirir.

Biblioqrafik göstəricidə qeyd olunduğu kimi, son zamanlara qədər tərtib olunmuş biblioqrafik məlumat kitabları ancaq "biblioqrafiya" adı ilə çap olunurdu. İlk dəfə olaraq "Heydər Əliyev: Biblioqrafik məlumat kitabı"nın tərtibçi müəllifləri professor A.Xələfov və S.Sadıqova biblioqrafiyanın inkişaf xüsusiyyətlərini, onun məzmununda gedən dəyişikliyi nəzərə alaraq və bunu müasir informasiya cəmiyyətinin tələbatına uyğunlaşdıraraq yeni bir terminin yaradılmasına ehtiyac hiss etdilər və kitabın buraxılışına nail oldular. Bu da ondan irəli gəlirdi ki, biblioqrafik vəsaitlərə ancaq biblioqrafiya deyilirdi. Biblioqrafik məlumat kitabında getdikcə məzmun dəyişikliyi başlayır. Çünki belə tərtib olunmuş vəsaitlərdə təkcə ədəbiyyat siyahısı deyil, elmi məlumat və digər informasiyalar verildiyi üçün professor A.A.Xələfovun qeyd etdiyi kimi onlar "zəngin ensiklopedik kitablardır".

Azərbaycan biblioqrafiyası tarixində yeni bir janr elmi ictimaiyyət tərəfindən çox hörmətlə qarşılanmışdır. Nüfuzlu biblioqrafiyaşünas alimlər biblioqrafik informasiya nəşrlərinin tarixin ayrı-ayrı mərhələlərində tədqiqatçılar və kitab həvəskarları üçün nadir və qiymətli çap əsərlərinə dair "Qırmızı kitab" rolu oynadığını iddia etməkdə yanılmırlar.

"Dünyanın görkəmli dövlət xadimləri" seriyasında milli biblioqrafiyamızın ilk nümunəsi olan bu biblioqrafik nəşr Ulu Öndər Heydər Əliyevin irsinni bir daha nümayiş etdirir. Kitab Ulu Öndər Heydər Əliyevin irsinin biblioqrafiyalaşdırılması sahəsində atılan ilk addım və ən mühüm informasiya mənbəyidir.